

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 216 (21.877)

15 noyabr 2017-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Prezident İlham Əliyev bildirib ki, iyirmi beş il əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu, böyük tarixi hadisə idi. Ondan təqribən bir ay əvvəl bir qrup vətənpərvər insan – məşhur 91-lər Heydər Əliyevə müraciət ünvanlamışdı. Ulu öndər müraciətə müsbət cavab verərək, yeni yaradılacaq partiyaya rəhbərlik etməyə hazır olduğunu bildirmiş və partiyanın təsis konfransının keçirilməsi haqqında qərar qəbul edilmişdir. Yeni Azərbaycan Partiyasının yaradılması demokratiyanın təzahürü idi. Buna baxmayaraq, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Ancaq Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına da çox böyük töhfə vermişdir. Bu gün biz demokratiya yolu ilə gedirik.

Yubiley mərasimi geniş konsert proqramı ilə davam edib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Rumıniyanın ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku ilə görüşüb.

Ali Məclisin Sədri ölkəmizə səfir təyin olunması münasibətilə Dan İankunu təbrik etdi, Azərbaycan-Rumıniya əlaqələrinin inkişafında və diplomatik münasibətlərin möhkəmləndirilməsində ona uğurlar arzuladı. Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə Rumıniya arasında əməkdaşlığın inkişaf istiqamətlərini diqqətə çatdırdı, iqtisadi və təhsil sahəsində əlaqələrin qurulması üçün imkanların olduğunu vurğuladı.

Səmimi görüşə görə minnətdarlıq edən Dan İanku əlamətdar tarixdə – Dövlət Bayrağı Gününün qeyd edildiyi günlərdə muxtar respublikaya səfərindən məmnunluğunu bildirdi. Naxçıvanın qədim tarixə və zəngin mədəniyyətə, eləcə də müasir inkişaf potensialına malik olduğunu bildirən səfir muxtar respublika ilə müxtəlif sahələrdə əlaqələrin qurulmasında və inkişafında səylərini artıracağını qeyd etdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Gənclər və İdman Nazirliyində tələbələrlə görüş keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin Bədən tərbiyəsi və idman ixtisasının tələbələri ilə görüş keçirib.***

Gənclər və İdman Nazirliyinin akt zalında keçirilən tədbiri nazir Azad Cabbarov açaraq ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi sərəncamda qarşıya qoyulan vəzifələrin icrası istiqamətində işləri davam etdirir.

"Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycana rəhbərliyi dövründə digər sahələr kimi idmana da qayğı ilə yanaşıb. Müstəqillik illərində idmanla bağlı qanunvericilik təkmilləşdirilib, maddi-texniki baza yaxşılaşdırılıb, böyük idman kompleksləri, idman-sağlamlıq mərkəzləri tikilib", – deyən nazir vurğulayıb ki, bu gün muxtar respublikada da uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Vətənpərvər gənc nəslin yetişdirilməsi, onların intellektual potensiallarının daim zənginləşdirilməsi məqsədilə yaradılan şərait gənclərin ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmalarına geniş imkanlar açır. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənclərin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar muxtar respublikada gənclərin intellektual səviyyəsinin inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Gəncliyə dövlət qayğısı sabaha və gələcək uğurlara hesablanan bir siyasətdir.

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı sahəsində mühüm işlərin görüldüyünü vurğulayan Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkilinin daim diqqət mərkəzində saxlanılmasından danışıb. Bildirib ki, muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya komplekslərinin, orta və ali təhsil müəssisələrində idman zallarının yaradılması gənclərin idmana kütləvi şəkildə cəlb olunmasına imkan verib.

Sonra tələbələr Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Üzgüçülük Mərkəzi, Naxçıvan Muxtar Respublika Stadionu və İslam Həmbətov adına Uşaq-gənclər idman məktəbi ilə yaxından tanış olublar.

**Ceyhun MƏMMƏDOV**

***Muxtar respublikada iqtisadi artımın yüksələn dinamikasının qorunub saxlanılması qarşıya qoyulmuş ən mühüm vəzifə kimi diqqəti cəlb edir. Aparılan təhlillər göstərir ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təmin olunması bu məqsədlərə çatmaqda mühüm amillərdəndir. Naxçıvan Muxtar Respublikasında cari ilin ilk 9 ayının sosial-iqtisadi inkişaf mənzərəsi belə deməyə əsas verir.***

## Davamlı inkişaf sosial rifahı təmin edir

Muxtar respublikanın iqtisadi inkişafında ən mühüm göstəricilərdən biri olan ümumi daxili məhsulun həcminin artım dinamikası bəhs edilən dövrdə yüksələn templə müşahidə olunub. Belə ki, 2017-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 1 milyard 949 milyon manatdan artıq ümumi daxili məhsul istehsal olunub ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,6 faiz çoxdur. Bu dövrdə muxtar respublikanın sosial-iqtisadi inkişafının digər göstəriciləri arasında sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq, ixracat və xidmət sahələrində də artım dinamikasının təmin olunduğunu görürük. Əhali gəlirlərinin artması alıcılıq qabiliyyətini təmin edib, mal və xidmətlərdən istifadə səviyyəsini yüksəldib. Belə ki, bəhs olunan dövr ərzində muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyard 331 milyon 097 min 400 manat, onun hər bir nəfərə düşən məbləği isə 2954,7 manat təşkil edib.

Muxtar respublikada əhali gəlirlərini təmin edən ən mühüm amillərdən biri sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ilə yeni iş yerlərinin yaradılmasıdır. Sahibkarlığın dəstəklənməsi, xüsusən kiçik və orta sahibkarlığa göstərilən qayğı ötən dövr ərzində də regionda məşğulluğun səviyyəsinin artırılmasına və əhali gəlirlərinə öz təsirini göstərib. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının davamlı olaraq yaxşılaşdırılması nəticəsində muxtar respublikada 2017-ci ilin yanvar-sentyabr aylarında sahibkarlara 7 milyon 934 min 100 manat məbləğində kreditlər verilib. Bu dövr ərzində 32 hüquqi və 1745 fiziki şəxs qeydiyyata alınıb. Məhz belə kreditləşmə mexanizminin təmin edilməsi yolu ilə region üçün çox mühüm olan yeni istehsal və xidmət sahələrinin yaradılması və bunun da nəticəsində əhali gəlirlərinin artırılması mümkün olur. Belə ki, bu gün muxtar respublikada 371 növdə məhsul istehsal olunur ki, onların da 121 növü ərzaq, 250 növü qeyri-ərzaq məhsullarıdır. Muxtar respublikada 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib. Nəticədə, əldə olunan davamlı inkişaf sosial rifahın zəmanətçisi kimi özünü göstərir.

Muxtar respublikada istehsal edilən ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Müasir dövrdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında çoxşaxəliliyin təmin olunmasında müxtəlif sənaye sahələrinin mühüm əhəmiyyəti vardır. İxracyönümlü məqsədlər üçün və yüksək texnologiyaların tətbiqi ilə istehsal olunan sənaye məhsulları əhali gəlirlərinin və muxtar respublikanın iqtisadi potensialının artırılmasında əsas mənbə kimi çıxış edir. Belə ki, cari ilin yanvar-sentyabr aylarında muxtar respublikada 781 milyon 430 min 500 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bu da əvvəlki ilin müvafiq dövründəki göstəricini 1,3 faiz üstələyib. İstehsal olunan sənaye məhsulunun 95,5 faizi özəl sektorun payına düşüb.

Görülən tədbirlər insanların rifah halının yüksəlməsində də özünü göstərir. Əhalinin həyat səviyyəsinin yaxşılaşması əhali gəlirlərinin artmasına və fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. Belə ki, bəhs olunan dövrdə muxtar respublikada əhalinin gəlirlərinin artması ilə fərdi mənzillərin tikintisi də geniş vüsət alıb. Belə ki, bu dövrdə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 368 min 840 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da əvvəlki ilin müvafiq dövründəki göstəricidən 1,2 faiz çoxdur. Sosial rifahın yüksəlməsi əhalinin sayının artmasında da özünü göstərib. Bu baxımdan cari il may ayının 4-də muxtar respublikanın 450 mininci sakininin dünyaya gəlməsi mühüm hadisə olub. Ümumiyyətlə isə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3 min 931 nəfər artaraq 1 sentyabr 2017-ci il tarixə 451 min 500 nəfəri ötüb.

Aparılan təhlillər göstərir ki, muxtar respublikada sosial-iqtisadi sahələrin kompleks inkişafı uğurla davam etdirilir. Əldə olunan nəticələr uzunmüddətli dövr üçün iqtisadi artımın və dayanıqlığın təmin edilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına zəmin yaradır.

**Əli CABBAROV**

*İstehsal müəssisələri*

# Keyfiyyətli yerli istehsal məhsullarına olan tələbat ödənilir



***Bu gün muxtar respublikamızda tikinti sənayesi materiallarına tələbatı ödəyəcək potensial yüksək səviyyədədir. Bu sahədə yerli xammaldan istifadəyə xüsusi diqqət göstərilir. Bunun nəticəsində son illərdə regionumuzda aparılan tikinti-quruculuq işlərində belə materiallara olan tələbat daxili imkanlar hesabına ödənilir, bu materialların keyfiyyətli istehsalına nəzarət gücləndirilir. Son illərdə isə ənənəvi tikinti materialları ilə yanaşı, plastik tərkibli yeni tikinti materiallarından da geniş şəkildə istifadə olunur.***







Yarandığı gündən daim innovativ texnologiyalardan yararlanmaqla istehlakçıların diqqətini çəkən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı uğurlu fəaliyyəti ilə muxtar respublika iqtisadiyyatının çiçəklənməsinə, sənayenin inkişafına və tikinti sektoruna öz töhfəsini verməkdədir.

Adıçəkilən şirkətin "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu gün həm yerli, həm də xarici bazarda geniş alıcı auditoriyası toplayıb. Müəssisədə istehsal olunan məhsullar keyfiyyəti ilə tanınır. İstehlakçısına belə məhsullar təqdim etməklə müştərilərinin rəğbət və etibarını qazanan müəssisə bu illər ərzində edilən əməkdaşlığa böyük dəyər verdiyini istehsal etdiyi yeni məhsullarla sübut edib. Məlumat üçün bildirək ki, müəssisə çox sayda məhsul çeşidinə malikdir. Müştərilərə həm çeşid zənginliyi, həm rahatlıq, həm də keyfiyyət baxımından tam xidmət göstərməklə daim yeni ideyaların ortaya qoyulması cəmiyyətin əsas prinsiplərindəndir.

Oktyabrın 25-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istilik panelləri və dam örtükləri istehsalı müəssisəsinin istifadəyə verilməsini cəmiyyətin öz fəaliyyətini genişləndirməsi istiqamətində atdığı addım kimi qiymətləndirmək olar. Xatırladaq ki, əvvəllər həmin məhsullara olan tələbat idxal hesabına ödənilirdisə, son illərdə tikinti sektoru sahəsində çalışan sahibkarlara göstərilən dövlət qayğısı bu tələbatın yerli məhsullar hesabına ödənilməsini təmin edib.

Yeni müəssisənin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fikirləri hər bir əməkdaşın iş prinsipinə çevrilib: ***"Yeni müəssisələrin qurulması həm də yeni iş yerlərinin açılması deməkdir. İş yerlərinin açılması isə məşğulluğun təmin olunmasına və insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir. Bir sözlə, dövlət-sahibkar münasibətləri, sahibkarların fəaliyyətinin tənzimlənməsi sahəsində görülən işlər ölkəmizin dayanıqlı inkişafını təmin edir. Bəzən sahibkarlar yalnız daxili bazarın tələbatını ödəmək üçün məhsul istehsal edirlər. Bu, sahibkarlığın inkişafına və müəssisələrin fəaliyyətinin genişləndirilməsinə mane olur. Hər bir sahibkar bilməlidir ki, yeni texnologiyalar tətbiq olunmadan, ixracyönümlü məhsul istehsal etmədən müəssisələrin inkişafına və keyfiyyətli məhsul istehsalına nail olmaq mümkün deyil. Ona görə də sahibkarlar yeni texnologiyaların tətbiqini və ixracyönümlü məhsul istehsalını daim diqqətdə saxlamalıdırlar".***

İstilik panelləri və dam örtükləri istehsalı müəssisəsində 5620 kvadratmetr sahədə dam örtükləri, istilik panelləri və boyama istehsalı xətləri yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. İstilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Təcrübəli mütəxəssislərin çalışdığı müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir. Kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş texnoloji avadanlıqlarda verilən sifarişə uyğun işlər avtomatlaşdırılmış şəkildə yerinə yetirilir. Panel-radiatorun ayrı-ayrı detalları müxtəlif mərhələlər keçməklə hazırlanıb avtomatik qaynaq edilir və qaynaq işlərinin keyfiyyəti test yoxlamasından keçirilir. Sonrakı mərhələdə boyaq işləri görülür. Birinci mərhələdə panel-radiator sulu boya ilə boyanıb xüsusi sobada istilikdə, ikinci mərhələdə isə tunel sobada istilikdə elektrostatik toz boya ilə boyanıb qurudulur. Hazır məhsul xüsusi avadanlıqlarda paketlənib sifarişçilərin ünvanlarına göndərilir.

Dam örtükləri istehsalı sahəsində isə dəmir lövhələr xüsusi qəliblərdə sıxılıb sifarişə uyğun kəsilir. Rəngli şiferlər tunel sobada xüsusi texnologiya, elektrostatik toz boya ilə boyanır.

Müəssisədə fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarəti təmin edir. Standartların tələblərinə uyğun istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyəcək, 80 faizi isə ölkəmizin digər bölgələrində və xarici bazarlarda satışa çıxarılacaqdır.

Müəssisədə olarkən onu da öyrəndik ki, burada iş otaqları, iclas zalı, mətbəx, torna və dülgər emalatxanaları, tikinti materiallarının satış mərkəzi, hazır və ehtiyat hissələri anbarları da istifadəyə verilib. Müəssisədə təhlükəsizlik tədbirlərinə də diqqət artırılıb, videomüşahidə sistemi quraşdırılıb. Burada 135 nəfər işlə təmin olunub, işçilər üçün xidməti otaqlar yaradılıb. Onlar pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyatla təmin olunublar.

İstehsal olunan məhsullar beynəlxalq standartlara uyğundur. Bu da onu deməyə imkan verir ki, istər yerli, istərsə də xarici istehlakçılar qısa zaman ərzində Naxçıvan istehsalı olan istilik panelləri və dam örtükləri məhsullarına üstünlük verəcəklər.

Qeyd edək ki, "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində plastik boru, profil və aksesuarlar istehsalı müəssisəsi də yaradılacaqdır. Burada istehsal prosesi ilə tanış olan muxtar respublika rəhbəri məhsulların nümunələrinə baxıb, keyfiyyətli məhsul istehsalı, işçi-sahibkar münasibətlərinin tənzimlənməsi, sahibkarlar arasında əlaqələrin gücləndirilməsi ilə bağlı aid təşkilatlara tapşırıqlar verib.

Hazırda əsas tikinti işləri başa çatdırılıb. Gələcəkdə burada Türkiyə, Çin və digər dövlətlərin istehsalı olan tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılacaq. Sonrakı mərhələdə 38 istehsal sahəsi və müasir laboratoriya istifadəyə veriləcək. Gücü ayda 1500 ton olacaq müəssisədə qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su, eləcə də polietilen suvarma boruları, lambir, saydinq və aksesuarlar, müxtəlif boru fitinqləri olmaqla, 7 növdə və 160 çeşiddə məhsul istehsal ediləcək. Bütün bunlar daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanlarını da artıracaq, eyni zamanda müəssisədə 285 yeni iş yerinin açılmasına şərait yaradacaq.

*Sonda onu da qeyd edək ki, bu gün muxtar respublikada dövlət sifarişi əsasında tikintinin həyata keçirilməsi, əhali tərəfindən yeni mənzillərin tikilməsi, eləcə də istehsal və xidmət sahələrinin yaradılmasından sonra dam örtüklərinə və istilik panellərinə olan tələbatın artması müəssisə üçün yeni biznes imkanları açır. Müəssisənin kollektivi bu imkanlardan səmərəli faydalanmaq üçün səy göstərir, beləliklə də, muxtar respublika əhalisi keyfiyyətli məhsullarla təmin edilir, həm də xarici bazarlara məhsul çıxarılır. Təbii ki, bütün bu görülən işlər ümumi rifaha xidmət edir.*

**Nail ƏSGƏROV**

***İqtisadiyyatın inkişafı çoxşaxəli olduğundan, bu inkişafın nəticəsini bütün sahələrdə görmək və hiss etmək mümkündür. Pərakəndə ticarətin inkişafı isə istənilən ölkədə iqtisadi inkişafın ümumi mənzərəsini göz önündə canlandırır. Çünki istehlakçının hansısa məhsulla ilk təması pərakəndə ticarətdən başlayır. Bir məhsulun keyfiyyəti, dəyəri, qiyməti haqqında ilk düşüncələrimiz həmin məhsulların satıldığı mağazalarda, ticarət obyektlərində, bir sözlə, pərakəndə ticarətdə gördüyümüzdən sonra formalaşır.***

# Pərakəndə ticarətdə ixtisaslaşma iqtisadi inkişafın göstəricisidir



Pərakəndə ticarət istehsalçının düşüncə və ideyalarının son nəticəsi olaraq istehsal etdiyi məhsulların istehlakçı ilə "görüşdüyü" son nöqtədir. Bununla yanaşı, marketoloqlar öz işlərini burada daha yaxşı nümayiş etdirə bilirlər, sahibkarlar məhsullarının keyfiyyətini, reklamçılar reklamlarının təsirini məhz pərakəndə ticarətdə öyrənirlər. Eyni zamanda brend məhsullar öz liderliklərini burada sübut edirlər. Bu mənada, iqtisadçıların qənaətinə görə, pərakəndə ticarət ölkə biznesinin aynasıdır. Bəzən deyirlər ki, istehsalçılar məhsulu necə istehsal etməyi istehsal müəssisələrində deyil, pərakəndə ticarətdə öyrənirlər. Yəni istehlakçının necə məhsul istədiyini bu sektor vasitəsilə öyrənib təmin edirlər.

Ötən yazılarımızın birində qeyd etmişdik ki, ölkəmizdə pərakəndə ticarətin inkişafı müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir. Azad bazar iqtisadiyyatına yeni keçidin formalaşdığı həmin dövrdə ölkəmizin hər tərəfində olduğu kimi, muxtar respublikamızda da ümumi iqtisadi vəziyyət ürəkaçan deyildi. Yaşayış məntəqələrinin yaxınlığında çoxsaylı kiçik satış obyektlərinin ("budka" ticarəti) yaranması, qonşu ölkələrdən ərzaq və qeyri-ərzaq məhsullarının idxal olunaraq fərdi şəkildə satışının təşkil edilməsi pərakəndə ticarətin ilk işartıları idi.

Muxtar respublikada iqtisadi sahələrin iflic vəziyyətinə düşməsi əhalinin kütləvi işsizliyinə səbəb olmuş, pərakəndə ticarət bir çoxları üçün əsas məşğuliyyətə çevrilmişdi. Ancaq biznesin öz qaydaları var. Pərakəndəçilik sektorunun inkişafı da bu qaydalara əsaslanır. Bu sektor o zaman inkişaf edir ki, aid olduğu ölkədə iqtisadiyyatın bu və ya digər sahələri üçün lazımi şərait yaradılsın, yeni istehsal sahələri fəaliyyətə başlasın. Əldə olunan məhsullar əvvəlcə daxili bazarın tələbatını ödəsin (yəni pərakəndəçilik sektoru inkişaf etsin), sonra ixrac üçün yeni imkanlar yaransın. Hamımızın yadındadır; müstəqillik illərində fəaliyyət göstərən mağazalarımızın piştaxtalarında qida və yuyucu məhsulları, məişətdə istifadə olunan əşyalarla müxtəlif geyim növləri yanaşı satılırdı. Məhsullarda çeşid və növ seçimi olmadığından keyfiyyətdən, qiymətlərin tarazlığından söhbət gedə bilməzdi. Üstəlik, belə satış obyektlərinə antisanitariya vəziyyətini də əlavə etsək, mənzərə hər birimiz üçün daha aydın olar. Hər halda pərakəndəçilik sektorunun bu dövrünü heç birimiz unutmamışıq. Ancaq nəzərə alaq ki, ötən dövrdə ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlər, məqsədyönlü işlər bu sektora da öz təsirini göstərdi. Şəhər infrastrukturunda yeni layihələrin həyata keçirilməsi mağazaçılıqda da yeni mərhələnin yaranmasına təkan verdi. Təxminən, 2000-ci illərdən sonra yeni açılan satış obyektlərində idxal məhsulları ilə yanaşı, yerli məhsulların da həcmi artmağa başladı.

Hər ötən il muxtar respublikada yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması paralel olaraq pərakəndə sektorunun inkişafına öz təsirini göstərir. Pərakəndə sektorunun qızıl qaydalarından biri də budur ki, satılan məhsulların növü və çeşidi artdıqca alıcılıq qabiliyyəti də yüksəlir. Belə də bir sual yarana bilər ki, axı alıcılıq qabiliyyəti aşağıdırsa, məhsulların çeşidinin artmasının nə faydası ola bilər? Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, istehsalçı yeni, yaxud fərqli növ və çeşidlərdə məhsul istehsal edirsə, satacağı bazarın tələblərinə uyğunlaşdırmaqla qərar verir. Çünki istehsalçı sahibkar bunu etməzsə, öz istehsalının davamlılığını təmin edə bilməz.

Təcrübə göstərir ki, pərakəndəçilik sektorunda müştəriyə təqdim edilən məhsulların növ və çeşid müxtəlifliyi təmin olunursa, bu, zaman keçdikcə yeni istehlakçı trendlərinin yaranmasına gətirib çıxarır. Yəni, belə deyək, 10-15 il bundan əvvəl idman ayaqqabısı almaq istəyən bir gənc, sadəcə, ona təqdim olunan tək çeşiddən almaq məcburiyyətində qalırdısa, bu gün o, bu ayaqqabının qaçış və ya piyada gəzintisi üçün, qış və ya yay mövsümü üçün nəzərdə tutulduğu ilə maraqlanır. Belə fərq müxtəlifliyini istənilən məhsul üçün söyləmək olar. Bu isə, öz növbəsində, pərakəndə ticarətdə mağazaların ixtisaslaşmasına gətirib çıxarır. Sevindirici haldır ki, mağazalarda ixtisaslaşma prosesini bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində də görürük. Son illərdə "Fərda" şirniyyat istehsal edən müəssisənin yeni mağazalarının yaradılması, "Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək qəsəbəsində ət və ət məhsullarının, "Koton", "İdeal" mağazalar şəbəkələrinin yeni satış mərkəzlərinin fəaliyyətə başlamasını sektorun uğurları kimi qiymətləndirmək mümkündür. Bundan əlavə, şəhərimizdə kiçikhəcmli olsa da, musiqi alətlərinin, yuyucu məhsullarının, çilçıraqların və digər növ məhsulların satıldığı mağazalar da mağaza ixtisaslaşması yönündə atılan ilkin addımlardır.

Bu gün dünyanın inkişaf etmiş ölkələrində ixtisaslaşmış mağazalar pərakəndəçilik sektorunun öndə gələn seqmentidir. Bu seqment, eyni zamanda istehlakçı mədəniyyətinin formalaşmasına şərait yaradır. Digər tərəfdən, güclü pərakəndə şəbəkəsinə malik olmadan güclü şirkət olmaq mümkün deyil. Ümumilikdə götürsək, pərakəndə ticarətdə ixtisaslaşma yenilikləri mənimsəmə və istifadəetmə imkanlarını ortaya çıxarır ki, bu da iqtisadi inkişafın göstəricisi kimi xarakterizə oluna bilər.

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan ərazisində yerləşən tarix və memarlıq abidələrində intensiv surətdə aparılan təmir-bərpa işləri, həmçinin onların mühafizəsi milli və mənəvi dəyərlərimizə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 2005-ci il 6 dekabr tarixdə imzalanmış "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncama əsasən qeydə alınan və pasportlaşdırılan yüzlərlə tarix və memarlıq abidəsi unudularaq yoxa çıxmaq təhlükəsindən xilas edilmişdir. Belə abidələrdən biri türk-islam mədəniyyətinin dəyərli nümunələrindən olan Şahtaxtı hamamıdır.***

*Naxçıvanın türk-islam mədəniyyəti abidələri*

# Şahtaxtı hamamının arxeoloji tapıntıları və memarlıq ənənələri





2006-cı ildə XIX əsr abidəsi kimi qeydə alınaraq pasportlaşdırılan bu abidə paklanmanın əsas məkanı, hamam mədəniyyətinin simvollarındandır. Şərq ölkələrində insanların sosial həyatının ayrılmaz elementlərindən biri məhz hamam mədəniyyəti ilə bağlı olmuşdur. İslam mədəniyyəti hamamlara xüsusi çalarlar gətirmiş, onların funksiyasını genişləndirmiş, dəyərini artırmışdır. Onlar artıq yaşayış yerlərinin mərkəzlərində, məscidlər, karvansaralar və digər ictimai tikililərlə birlikdə yer almışlar. Orta əsrlər dövründə müsəlman ölkələrinə aylarla yol qət edərək gələn səyyah və tacirlərin hamamlarda yuyunub paklandıqdan sonra şəhər-qalaların içərisinə daxil olmasına icazə verilməsi haqqında mənbələrin məlumatı hamamların ictimai həyatda oynadığı rolu əks etdirir. Mənbələrdə XIII əsrdə Azərbaycan şəhərlərinin hər bir darvazasının yanında çaharbazar, karvansara və hamamların olması haqqında verilən məlumatlar yuxarıdakı fikri təsdiq edir. Göründüyü kimi, mənbələrdəki məlumatlar, əsasən, şəhər hamamları ilə bağlı olmuşdur.

Naxçıvan Muxtar Respublikasının bir çox yaşayış məntəqələrində, o cümlədən Şahtaxtı, Xok, Yengicə və digər kəndlərində vaxtilə fəaliyyət göstərmiş hamamların günümüzədək gəlib çatan qalıqları göstərir ki, belə yerlər, sadəcə, şəhər həyatında deyil, kəndlərdə də insanların həyat tərzinin vacib elementlərindəndir. İsa Sultan adlı bir xeyriyyəçi tərəfindən tikdirildiyi mənbələrdə qeyd edilən Şahtaxtı hamamı türk-islam mədəniyyətinin kəndlərimizdəki ictimai tikililərdə öz əksini tapan nümunələrindəndir. Buradan aşkar edilən arxeoloji tapıntıların timsalında hamamların təchizatını daha aydın şəkildə izləmək olar. Şahtaxtı kəndinin mərkəzində yerləşən hamamın binasının uzunluğu 20, eni 9 metrdir. Yarım yeraltı formada olan binanın giriş qapısına doğru xaricdən pillələri olmuşdur, lakin binadan istifadə edilmədiyinə görə, onların üstü torpaq təbəqəsi ilə örtülmüşdür. Günçıxan istiqamətdə olan giriş hissə 1,1x2, divarının qalınlığı isə 2 metrdir.

Türk-islam mədəniyyətinin ən mühüm elementlərindən biri Şahtaxtı hamamının uzaqdan diqqəti cəlb edən günbəzlərində əks olunmuşdur. Bir-birindən 3,8 metrlik məsafədə ucalan günbəzlərin diametri 5 metr, hamamın dam örtüyündən başlayaraq yuvarlaq konusvarı şəkildə ucaldılan hissəsinin xaricdən hündürlüyü isə 1,3 metrdir. Günbəzlər yerli çay daşlarından hörülərək yuxarıya doğru tədricən yığılmaqla mərkəzində olan dairəvi baca ilə tamamlanmışdır. İçərinin işıqlandırılması bu bacalar vasitəsilə həyata keçirilmişdir. Hamamın tavanında açılmış bacalar kompleksi ikitiplidir. Birinci tip bacalar günbəzlərin qurtaracağında yaradılan iki nümunədir ki, onlardan birincisi 60 santimetrlik, ikincisi isə 1 metrlik diametrə malikdir. İkinci tipə aid olan bacalardan dördü 60, beşincisi isə 30 santimetrlik diametrə malik olub, binanın düz formalı tavanından içərini işıqlandırmışdır. Hamamın tikintisində mühüm yer tutan günbəz və bacalar kompleksində bu regionda mövcud olmuş qədim mədəniyyətlərin türk-islam mədəniyyəti ilə qovuşan əlamətləri əks olunmuşdur. Belə ki, Neolit dövrü memarlığının əks olunduğu Şomutəpədə, həmçinin Naxçıvan ərazisindəki I Kültəpə yaşayış yerində görkəmli arxeoloqlar tərəfindən aşkar edilən tikililərin qalıqlarına əsaslanaraq hazırlanan rekonstruksiya – şəkillərdən məlum olur ki, evlər silindrik-konusvarı ucaldılaraq işıqlandırma funksiyası daşıyan dairəvi bacalarla tamamlanmışdır. İslam mədəniyyəti bu ənənəni çatma tağlı tikililər və onların üstünü örtən günbəzlərlə zənginləşdirmişdir. Şahtaxtı hamamında rast gələnən hər iki günbəz tağbəndlərlə tamamlanan otaqların üstündə yerləşmişdir. Onlar hamamın əsas salonları olmuşdur.

Türk-islam mədəniyyəti memarlıq xüsusiyyətlərinin digər elementini təşkil edən çatma tağlarla tamamlanan bu salonlardan biri dördkünc formada olub şimal və cənub divarlarının hər birində 2 sayda olmaqla ümumi aypara şəkilində tamamlanan qapıya bənzər 4 köməkçi yer yaradılmışdır. Kənd sakinlərinin verdiyi məlumata görə, hər biri 1,2x1,3 metr ölçüdə olan bu hissələrdən soyunma kabinəsi kimi istifadə edilmişdir. Böyük ehtimalla, bu cür yerlər hamama gələn şəxslərin paltarlarının və digər əşyalarının saxlanması üçün nəzərdə tutulmuşdur. Ümumi hündürlüyü 5 metr olan salonun əsas divarının hörülməsində uzunluğu 75, eni 50 santimetr olan iriölçülü kvadratşəkilli daşlardan istifadə edilmişdir. Salonun mərkəzində dördkünc formalı çarhovuz olmuşdur. Yaxınlıqdakı kəhrizdən gətirilən su giriş qapısının altından çəkilmiş boru vasitəsilə hovuza daxil olurmuş. Salonun cənub divarı boyunca səki, divarın mərkəz hissəsindən isə ikinci otağa qapı olmuşdur. Digər otağa daxil olmaq üçün bir neçə pillə enmək lazım gəlirmiş. Görünür ki, yeraltı hamamın yuyunma otaqları daha dərində yerləşirmiş ki, bu da istiliyin saxlanmasını təmin edən əsas şərtlərdən biri olmuşdur. 5,8x2,5 metrlik sahəsi olan ikinci otağın 2,8 metr hündürlükdə olan divarları şərq və qərbdən aypara formasında tamamlanmışdır. Bu hissədə diqqətçəkən xüsusiyyətlərdən biri divarın orta hissəsindən üfüqi kəmər kimi uzanan sarı, saman qarışıqlı təbəqədir. Yerli əhalinin məlumatına görə, bu, XVI əsrdə geniş istifadə edilmiş yumurta sarısı ilə hazırlanan bərkidici maddənin qalığıdır.

Üçüncü salon tağbəndlərlə iki hissəyə ayrılmışdır. Şərq hissədə gələn soyuq su üçün yaradılan 0,7x1 metr ölçüdə taxça və hamamı isti suyla təmin edən 66 santimetr diametrli kürə, qərb hissədə isə kənd sakinlərinin məlumatına görə, hovuz olmuşdur. Salonun cənub divarındakı qapı sonuncu köməkçi otağa açılır. 2,4x3,4 metr ölçüdə və uzunsov formada olan bu otağın şərq və qərb divarlarında 43-50 santimetr enində səki olmuşdur. Bu salonun cənub divarında yaradılmış bacadan isə 3x2, 8x3,5 metr ölçülü ocaqxanaya nəzarət üçün istifadə edilmişdir. Əsas yuyunma zalı olan bu otağın divarlarından tavanına keçidin tağbəndlərlə təmin edilməsi, həmçinin divarlarında yaradılmış taxçanın və bacanın aypara şəklində tamamlanması türk-islam memarlığının tipik xüsusiyyətlərini özündə ehtiva edir.

Buradan tapılan sarı-çəhrayı rəngli saxsı fraqmentlərindən üçü xüsusilə diqqəti cəlb edir. Onlardan ikisi su borusuna aid olub diametrləri 12-13 santimetr arasında dəyişir. Su borusunun qalıqları Xaraba Gilandan tapılan və AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan saxsı borularla oxşarlıq təşkil edir. Digər saxsı fraqmenti isə ağız kənarı konusvarı yığılmış kasaya aiddir. Ehtimal ki, o, hamamda suyun hovuzdan, yaxud su xəttindən götürülməsində istifadə edilən qablardandır.

Keramika məmulatı tipoloji cəhətdən və hazırlanma baxımından orta əsrlərin inkişaf etmiş dövrlərinə məxsus xüsusiyyətləri özündə əks etdirir. Bu da hamamın XVIII-XIX əsrlərdə fəaliyyət göstərdiyini təsdiq edir. Kənd sakinlərinin məlumatına görə, saxsıların aşkarlandığı hissə vaxtilə burada qızıl olduğunu düşünən naməlum şəxslər tərəfindən qazıldığına görə uçmuşdur. Bu məlumat hamamın işləmə funksiyası ilə bağlı bir rəvayətin doğruluğunu təsdiqləyən faktlardan sayıla bilər. Belə ki, kəndin yaşlı sakinlərindən bəziləri hamamın suyunun bir şamla qızdırılması haqqında artıq dünyasını dəyişmiş ağsaqqallardan məlumat aldıqlarını qeyd etmişlər. Məlumdur ki, Şeyx Bəhaəddin (1546-1622) tərəfindən İsfahanda yaradılan hamamın bir şamla qızdırılmasını təmin edən əsas şərtlərdən biri divarların arasından keçən su borularının qızıldan hazırlanması olmuşdur. Qızılın istiliyi digər metallardan yaxşı keçirə bilməsi bu zərurəti yaratmışdır. Belə hamamların işlədilmə mexanizmini bilənlərin hədəfində qarət obyekti olaraq Şahtaxtı hamamının da olması yuxarıda qeyd olunan rəvayətin həqiqətə yaxın olma ehtimalını artırır. Əhalinin verdiyi məlumata görə, son dövrlərə qədər fəaliyyətdə olan hamamın iş rejiminə əsasən bazar ertəsi və cümə günləri qadınlar, şənbə və bazar günləri isə kişilər üçün ayrılıbmış.

*Şahtaxtı hamamı XX əsrin 80-ci illərində fəaliyyətini dayandırsa da, bu, regionda mövcud olmuş qədim mədəniyyətlərin türk-islam mədəniyyəti ilə qovuşmuş elementlərini özündə qoruyub saxlayan dəyərli tarixi sənət nümunəsi kimi əhəmiyyətini saxlamaqdadır.*

**Zeynəb QULİYEVA**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

---



***Bu gün muxtar respublikamızda çox sayda müasir uşaq bağçaları fəaliyyət göstərir. Biz də ara-sıra yolumuzu həmin müəssisələrdən salır, burada yaradılan şərait, uşaqların məktəbəqədər tərbiyə prosesində aldıqları biliklər ilə maraqlanırıq. Ötən günlərdə Naxçıvan şəhərində fəaliyyət göstərən 10 nömrəli uşaq bağçasında olduq.***

*Uşaqlar gələcəyimizdir*

# Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar sağlam ruhda yetişdirilir

Qeyd edək ki, bu məktəbəqədər müəssisə üçün yeni bina inşa olunub, 2013-cü il yanvar ayının 14-də fəaliyyətə başlayıb. Həmin gün açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır"*** fikrini xatırladaraq deyib: ***"Uşaq bağçasının yeni binasında ölkəmizin gələcəyi olan uşaqların sağlam milli ruhda yetişdirilməsi üçün lazımi şərait vardır. Yaradılan şərait uşaqların yüksək sosial-mənəvi mühitdə böyüməsinə, onların təlim-tərbiyəsinin, ilkin təhsilinin müasir səviyyədə təşkil olunmasına imkan verəcəkdir. Uşaq bağçalarında cəmiyyət və ölkə üçün yararlı vətəndaş kimi böyüdülən uşaqlar isə orta təhsillərini də müvəffəqiyyətlə başa vuraraq dövlətimizin gələcək inkişafında yaxından iştirak edəcəklər. Ona görə də məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara ilkin biliklərin dərindən öyrədilməsi, onların məktəbə hazırlanması və əsl vətəndaş kimi yetişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

Bağça ilə tanış olarkən müdirə Elnarə Seyidova bildirdi ki, ötən dövrdə onlar fəaliyyətlərini məhz muxtar respublika rəhbərinin dediyi fikirlər əsasında davam etdiriblər. O, qeyd etdi ki, 242 yerlik binada uşaqların hərtərəfli inkişafı üçün bütün imkanlar vardır. Uşaq bağçasında 11 qrup fəaliyyət göstərir. Onlardan 3-ü 1-3 yaş arası uşaqlar üçün, 8-i isə 3-6 yaş arası uşaqlardan ibarət məktəbəhazırlıq qruplarıdır. Binada hər qrup üzrə ayrıca yataq və oyun otaqları, tədbirlər və şənliklər zalı, tibb otağı, metodik kabinə, mətbəx, camaşırxana, dərzi, valideyn və iş otaqları vardır. Bağçada uşaqların təlim-tərbiyəsi ilə 21 tərbiyəçi müəllim məşğul olur. Burada uşaqlara hesab, təsviri fəaliyyət, idman və musiqi məşğələlərində yaş səviyyəsinə uyğun bilik, bacarıq və vərdişlər aşılanır. Onların nitqinin inkişaf etdirilməsi, bədii ədəbiyyatla tanış olmaları diqqət mərkəzində saxlanılır. Təlim prosesində əyani vasitələrdən istifadəyə xüsusi önəm verilir. Bağçada uşaqların qidalanması prosesinə ciddi diqqət yetirilir. Günün rejim qaydalarına uyğun olaraq uşaqların sağlam böyüməsinə kömək edən qidalar menyuya əlavə edilir, xüsusilə Naxçıvanda istehsal olunan ekoloji təmiz ərzaq məhsullarından istifadəyə üstünlük verilir.

Bağçada mütəmadi olaraq ilin əlamətdar günləri ilə əlaqədar tədbirlər keçirilir, uşaqlarla maarifləndirici söhbətlər aparılır. Həmçinin onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif bilik yarışları təşkil olunur.

Bağçada olduğumuz müddətdə uşağını buraya həvalə edən valideynlərlə də söhbət etdik. Balaca Səidin valideyni Anar Qasımov bağçadakı şəraitdən razılığını bildirdi:



– İlk vaxtlar övladımı buraya gətirməyə tərəddüd edirdim. Çünki keçmişdəki yararsız vəziyyətdə olan uşaq bağçaları xatirimə gəlirdi. Ancaq bu gün dövlətimiz tərəfindən müasir standartlar səviyyəsində hər cür şəraitə malik uşaq bağçaları tikilib istifadəyə verilir. Bütün bunlar gələcəyimiz olan uşaqların hərtərəfli inkişafına imkan yaradır. Artıq mən də övladımı bu bağçaya gətirirəm. Burada onun düzgün qidalanması təmin edilir, istirahət rejimi baxımından hər cür şərait yaradılır. Bağçada uşaqların sağlamlıqlarına da xüsusi diqqət yetirilir. Bu məqsədlə onlar mütəmadi olaraq tibbi müayinədən keçirilir. Uşaqların bilik və bacarıqlarını inkişaf etdirmələri üçün müxtəlif məşğələlər təşkil edilir. Biz valideynlər də həmin məşğələlərə dəvət olunur, övladlarımızın nələri öyrəndiyinin şahidi oluruq. Yaradılan şəraitə görə dövlətimizə, qayğıkeş münasibətə görə isə bağça kollektivinə minnətdaram.

Digər bir müsahibim isə iki övladını bağçaya gətirən Türkanə İsgəndərlidir. O da, öz növbəsində, deyir:

– Bağçaya ilk gəldiyimizdə bizi mehribanlıqla qarşılayıb yaradılan şəraitlə tanış etdilər. Ertəsi gün övladımız Münəvvərin sənədlərini hazırlayıb bağçaya təqdim etdik. Övladımızı bağçaya yazdırdığımız gündən rahatıq. Çünki bilirik ki, burada qayğı ilə böyüyür, tərbiyə alır, vətəninə layiqli övlad kimi yetişdirilir. Yeməyi vaxtlı-vaxtında verilir, sağlamlığına da ciddi nəzarət olunur. Bütün bunlar digər övladımız Xəzəri də buraya gətirməyimizə səbəb olub. İndi hər iki övladımız bağçada, əmin əllərdədir. Bütün bunlar bir valideyn kimi bizi çox sevindirir.

*Bəli, bu gün yüzlərlə körpə fidan muxtar respublikada yaradılmış geniş imkanlara malik yaraşıqlı uşaq bağçalarında təlim-tərbiyə alır, gələcəyə inamla addımlayırlar. Yaradılan imkanlar isə dövlətimizin qayğısından xəbər verir.*

**✍ Nail ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada bu sahə ilə məşğul olan sahibkarlar və əhali tərəfindən minnətdarlıqla qarşılanıb. Proqramdan irəli gələn vəzifələrin vaxtında yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlərin keçirilməsini muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə kimi də dəyərləndirmək olar.***

# Muxtar respublikada arıçılığın inkişafı üçün hərtərəfli şərait yaradılıb

*İkinci “Arıçılıq məhsulları-bal festivalı”ndan reportaj*











2016-cı ilin 15-16 oktyabr və cari ilin 11-12 noyabr tarixlərində “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Arıçılıq məhsulları-bal festivalı” bu tədbirlərin davamıdır. İlk festivaldakı kimi, ikinci festivaldan da aldığımız təəssürat yüksək oldu. Dövlət proqramı ilə bağlı həmsöhbət olduğumuz insanlar bu sənədin böyük əhəmiyyət daşıdığını vurğuladılar. Tarix üzrə fəlsəfə doktoru Asəf Orucov dedi ki, Naxçıvanda qədim zamanlardan günümüzə qədər təsərrüfatın aparıcı sahələri sayılan əkinçilik və maldarlıqla yanaşı, başqa yardımçı təsərrüfat sahələri də inkişaf etdirilib. Belə təsərrüfat sahələrindən biri isə arıçılıqdır. Muxtar respublikanın təbii-coğrafi iqlimi, zəngin floraya malik olması arıçılığın geniş yayılmasına imkan verib. Bu sahənin Naxçıvanda nə vaxtdan yarandığı elmə dəqiq məlum olmasa da (çünki arxeoloji qazıntılar nəticəsində bu haqda hələlik heç nə aşkar edilməyib), ərazidə vəhşi çöl arılarının və arıçılıqla bağlı coğrafi adların (Ballıqaya, Pətəklik, Pətəkqoyulan) bu gün də mövcud olması burada arıçılığın qədim dövrdən inkişaf etdiyini göstərir.

Tarixi qaynaqlardan məlum olur ki, Naxçıvanda arıçılıq vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçib. Şahbuz rayonundakı Ballıqaya, Ordubad rayonundakı Arıtəpə və digər ərazilər bu yerlərin qədim arıçılıq məskənləri kimi məşhurlaşdığının göstəricisidir.

XIX əsr rus tədqiqatçısı V.Q.Qriqoryevin məlumatına görə, həmin yüzilliyin 30-cu illərində Ordubad dairəsində əhalinin əksəriyyəti arıçılıqla məşğul olub. Tədqiqatçı N.N.Şavrov yazırdı ki, Ordubad qəzasında 3500 arı ailəsi saxlanılıb. Həmin dövrdə K.A.Qorbaçev Ordubad ərazisində 2 arı cinsinin olması haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əyyub Abdullayevlə də həmsöhbət olduq. O bildirdi ki, son illər digər təsərrüfat sahələri kimi, muxtar respublikamızda arıçılığın inkişafına da böyük qayğı göstərilir. Bu da Naxçıvanda arı ailələrinin sayının artırılmasına şərait yaradıb. Əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi vardısa, hazırda arı ailələrinin sayı 70 min 537-dir. Muxtar respublikanın mövcud bitki örtüyü burada 100 mindən çox arı ailəsi saxlamağa imkan verir və onlardan bir il ərzində 2000 tondan artıq əmtəəlik bal toplamaq mümkündür.

Qayıdaq dövlət proqramına. Proqramın qəbul edilməsi hansı zərurətdən yaranıb? Dövlət proqramının əsas məqsədi muxtar respublikada yerli və ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi üçün köçürülmə ərazilərində zoobaytar qaydalarına əməl edilməsi, xəstəliklərə qarşı vaxtında mübarizə aparılması və məhsul istehsalının artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması, şan vərəqi hazırlayan və arıçılıq avadanlıqları istehsal edən yeni müəssisələrin fəaliyyətə başlamasının dəstəklənməsi, tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması, arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin genişləndirilməsi, heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılmasının dəstəklənməsi bu məqsədə nail olunmasında başlıca vəzifələrdir. Həmin vəzifələrin yerinə yetirilməsi kənd əhalisinin məşğulluğunun artırılmasında mühüm rol oynayır.

Dövlət proqramının icrası nəticəsində muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi, arıçılıq məhsulları istehsalı sahəsinə investisiya qoyuluşunun artımına nail olunması, arı ailələrinin sayının 100 minə çatdırılması, arıçılıq sahəsində mütəxəssislərin hazırlanması kimi mühüm nəticələr reallaşmaqdadır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin baş məsləhətçisi Vəli Novruzovun sözlərinə görə, nazirlik tərəfindən dövlət proqramından irəli gələn bir sıra vəzifələr həyata keçirilir. Yerli arı genofondunun mühafizəsi və arı xəstəliklərinin yayılmasının qarşısının alınması üçün tədbirlər görülür. Arıçılıqda yüksək nəticələrə nail olunmasında arıçılıq üzrə mütəxəssislərin hazırlanması da vacib məsələdir. Həmçinin arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi barədə sahibkarların məlumatlandırılmasını, yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsini, muxtar respublikada balyığma mənbələrinin aşkar edilməsini, yem bitkilərinin çiçəklənmədən sonra biçilməsinə nəzarətin təşkilini nazirlik diqqətdə saxlayır.

“Naxçıvan Muxtar Respublika Arıçıları” İctimai Birliyinin sədri Vaqif Məmmədov deyir ki, muxtar respublikanın arıçıları bu sahənin inkişaf etdirilməsinə qayğını hələ 2008-ci ildə görüblər. Həmin il adıçəkilən ictimai birlik yaradılıb. Bu birlik muxtar respublika arıçıları üçün metodik mərkəz rolunu oynayır. Müntəzəm olaraq arıçılar bir araya gələrək bu təsərrüfat sahəsinin inkişaf etdirilməsi üçün müasir texnologiyaları öyrənir, fikir mübadiləsi aparırlar.

İndi isə Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən ikinci “Arıçılıq məhsulları-bal festivalı” barədə. İkinci dəfə keçirilən bu tədbirdə 264 arıçı tərəfindən 13 min 714 kiloqram süzmə, 2 min 222 kiloqram şan bal, 630 qram arı südü, 512 kiloqram mum, 99 kiloqram vərəmum, 50 kiloqram çiçək tozu, 18 kiloqram güləm, ballı biskvitlər və içkilər çıxarılmışdı. Yüksək səviyyədə təşkil edilmiş sərgi Naxçıvan şəhərinin sakinləri və muxtar respublikanın rayonlarından gəlmiş insanlarla dolu idi. Piştaxtaların üzərindəki uzaqdan xoş təəssürat yaradan arıçılıq məhsulları göz oxşayırdı. Muxtar respublikanın füsunkar təbiəti, təmiz havası və suyu hopmuş bu məhsullar alıcılar tərəfindən yüksək dəyərləndirilirdi.

Burada bir neçə arıçı ilə də görüşdük. Ordubad rayonunun Bist kəndində yaşayan Mərdan Rzayev uzun illərdir ki, arıçılıqla məşğul olur. Deyir ki, mövsüm vaxtı arı ailələrini muxtar respublikanın ucqar yaşayış məntəqələrinə aparır. Belə ünvanların təmiz havası, suyu, gülçiçəyi keyfiyyətli bal istehsalında mühüm rol oynayır.

Sədərək rayonunun Sədərək kənd sakini 75 yaşlı Abdulla Sadıqov isə bildirir ki, arı çox zərif məxluqdur, diqqətcillik, qayğı istəyir. Onun məhsulu isə hər dərdin dərmanıdır, təbabətdə geniş istifadə olunur. Bir çox xəstəliklər balla müalicə edilir. Bundan əlavə, baldan məişətdə şirniyyat məhsullarının hazırlanmasında da geniş istifadə olunur. Baldan hazırlanmış Ordubad paxlavası, ballı tort bu gün də öz şöhrətini qoruyub saxlamaqdadır. Hətta ordubadlıların təcrübəsindən ölkəmizin digər bölgələrində də istifadə olunur.

Festivalda həmsöhbət olduğum bir neçə sakin bu proqramı vaxtında qəbul edilmiş dövlət sənədi kimi yüksək dəyərləndirdi. Minayə Tağıyeva və Əli Novruzov adıçəkilən proqramın muxtar respublikada daha keyfiyyətli bal məhsullarının istehsalının həcminin artırılmasına stimul olduğunu dilə gətirdilər. Onu da bildirdilər ki, ikinci dəfədir, keçirilən festival insanların seçim etməsinə, daha keyfiyyətli məhsul almasına imkan verib.

Festival iki gün davam edib, arıçılar arasında “Ən yaxşı arıçılıq məhsulları-bal” nominasiyası üzrə müsabiqə keçirilib, qaliblər mükafatlandırılıblar.

✍ **Muxtar MƏMMƏDOV**

## Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı silsilə tədbirlər davam edir

***10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi münasibətilə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında keçirilən “Nuh yurdu” intellektual oyununa yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkil etdiyi oyun Gənclər Mərkəzində keçirilib.

Oyunda ali və orta ixtisas təhsili müəssisələrinin hər birindən 2 olmaqla, ümumilikdə, 12 komanda mübarizə aparıb. Oyun üç yarımfinal və final mərhələsindən ibarət olub. “Turan”, “Nuh”, “Yurd” və “Melodiya” komandaları finala vəsiqə alıblar.

Nəticəyə əsasən Naxçıvan Dövlət Universitetinin “Turan” komandası qalib adını qazanıb. “Naxçıvan” Universitetinin “Yurd” komandası ikinci, Naxçıvan Dövlət Universitetinin “Nuh” komandası isə üçüncü olublar.

Qalib gələn komandalar 17 noyabr 2017-ci il tarixdə “Gənclik” Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Ümumdünya Diabet Günü qeyd olunub

***Naxçıvan Muxtar Respublika Xəstəxanasında 14 noyabr – Ümumdünya Diabet Günü münasibətilə tədbir keçirilib. Xəstəxananın baş həkimi Əli Ələsgərov bildirib ki, dünyada diabet hallarının yüksəlməsinin qarşısını almaq məqsədilə 1991-ci ildən başlayaraq hər il noyabrın 14-ü Ümumdünya Diabet Günü kimi qeyd edilir.***

Baş həkim vurğulayıb ki, MDB ölkələri arasında ilk olaraq Azərbaycanda şəkərli diabetlə mübarizə istiqamətində mühüm addımlar atılıb, bu xəstəliyə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyənləşdirən, xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyən “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanunu qəbul olunub.

Sonra xəstəxananın Endokrinoloji xəstəliklər şöbəsinin müdiri, həkim-endokrinoloq Aysel Dünyamalıyeva “Şəkərli diabet xəstəliyinin epidemiologiyası” mövzusunda məruzə edib. Diqqətə çatdırıb ki, endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən olan şəkərli diabetlə mübarizə dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir. Hazırda muxtar respublikada 8 min 484 şəkərli diabet xəstəsi vardır. Görülmüş tədbirlər nəticəsində həmin xəstələrin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Cari ilin əvvəlindən bu günə kimi 1103 ədəd şəkərölçən cihaz, 6 min 692 qutu şəkərölçən test paylanılıb. Bu cihaz və testlər Endokrinoloji xəstəliklər şöbəsində qeydiyyatda duran hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda aparatla qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur.

Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb.

Sonra həkim-endokrinoloq Aysel İsmayılovanın “Şəkərli diabet nədir”, xəstəxananın Konsultativ-diaqnostik poliklinika şöbəsinin həkim-endokrinoloqu Gülçin Mustafayevanın “Şəkərli diabet və hamiləlik” mövzularında çıxışları dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Şərur rayonunun Ərəbyengicə icmasının tender komissiyası icma qrupunun hazırladığı “Yolun bərpası” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki və insan resursları barədə məlumat*
* *Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 22 noyabr 2017-ci il, saat 18[00]-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Şərur rayonu, Ərəbyengicə kəndi tender komissiyası icma qrupunun sədri: Kamal Səlimov***
***Əlaqə telefonu: (055) 883 40 57***



ŞƏRQ qapısı

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 927**